# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 452** **QƏRAR** **Bakı şəhəri, 10 oktyabr 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 803 (Cild I); 2024, № 2, maddə 235) ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2.2-ci və 6.1.3-cü yarımbəndlərdə "Təhsil" sözü "Elm və Təhsil" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 1.2.7-1-ci, 6.1.8-1-ci və 6.1.8-2-ci yarımbəndlər əlavə edilsin:

"1.2.7-1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi;";

"6.1.8-1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi:

1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinə uyğun olaraq dini təhsil müəssisələrinin proqramlarına erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələrinə dair mövzular daxil edir;

2. dini təhsil müəssisələrində təhsilalanların, habelə din xadimləri tərəfindən gənclərin erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsinin artırılması üzrə tədbirlərin həyata keçirilməsini təşkil edir.

6.1.8-2. Yerli icra hakimiyyəti orqanları gənclərin erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsini artıran tədbirlər keçirir.".

3. 1.2.11-ci yarımbənddə və 7.1-ci bənddə "Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası" sözləri "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan.- 2024.- 12 oktyabr (№ 224).- S.2.